Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şaman nəvəsi – Rüstəm Behrudi

**Rüstəm Behrudinin 60 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Şəhla Əliyeva**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Şaman nəvəsi – Rüstəm Behrudi:** metodik vəsait / tərt.ed. A.Əliyeva; red. K.Ağazadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Mən qərib, kimsəsiz, didərgin ruham,
Göylərdə bilinməz qəbrim var mənim.
Ölsəm, tabutumu mələklər tutar,
Yasımı allahlar saxlayar mənim.

Dünya ədəbiyyatında elə qələm sahiblərinin yaradıcılığına rast gəlirik ki, onların əsərlərinin böyük hissəsi sırf milli məsələlərə, mənsub olduqları etnonim problemlərinə, bir sözlə, etnik-genetik mənşəyinin özünəməxsusluğuna aid olsa da, o nümunələr sənətkarlıq baxımından, estetik-kulturoloji dəyərinə görə məhəlli deyil, bəşəri ədəbi hadisə kimi söz sənəti tarixinin bir parçasına çevriliblər. Homer, Firdovsi, Nizami, Höte, Bayron, Puşkin və başqa şairlərin yaradıcılığından axıb gələn həmin estetik enerji çağdaş ədəbiyyatda da öz dəyərini itirməyib və müəyyən dərədə müxtəlif nəsil yaradıcı insanların əsərlərində özünü göstərir. Ən maraqlısı da odur ki, bu cəhət daha çox özünü poeziyada, şeirdə qabarıq verir.Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərində bu cür şairlərin yaradıcılıq nümunələrinə çox rast gəlirik. Elə şairlərdən biri də "Salam dar ağacı" yazaraq böyük poeziya meydanında dövrün, zamanın gərdişinə sinə gərən, bu günlərdə ədəbi ictimaiyyətimiz, eləcə də iki yüz milyondan çox insanı əhatə edən türk dünyası şairsevənlərinin 60 illik yubileyini böyük sevgi ilə qarşıladığı şair publisist, fərqli poetik düşüncə adamı Rüstəm Behrudidir. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə "Salam dar ağacı" adlanır və şairin həyat və yaradıcılığından, "Mən haqqa sınmış qərib dərvişəm" adını daşıyan II hissə isə şairin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Yaradıcılığı

Rüstəm Behrudi 1957-ci il sentyabrın 12-də Ordubad rayonunun Behrud kəndində ziyalı ailəsində dünyaya gəlmişdir. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun tarix-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirəndən sonra bir müddət Ordubad rayonunun Unus kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi çalışmışdır. 1988-ci ildən güclənən milli-azadlıq hərəkatının fəallarından olmuşdur. “Salam, dar ağacı” kitabı və digər poetik əsərləri milli-mənəvi düşüncələr rəğbətlə qarşılanmışdır. Şairin Türk dünyası oxucuları arasında sevilən kitabları həm Azərbaycanda, həm Türkiyə respublikasının İstanbul, Ankara, İzmir, şəhərlərində işıq üzü görüb. Əsərləri rus, ingilis, fransız, çex, türk, polyak, özbək, qazax, qırğız və başqa dillərə tərcümə edilib. Şair “Yaddaşlara yazın”, “Şaman duası” kitablarının müəllifidir. “Şaman duası” kitabı türkdilli dövlətlərdə böyük maraqla qarşılanmış, kitabdan seçmələr Türkiyədə, İranda, Avstriyada, Almaniyada, Belçikada və s. ölkələrdə çap olunmuşdur. Rüstəm Behrudinin “Yaddaşlara yazın”, “Salam, dar ağacı”, “Boz qurd”, “Şaman duası”, “İblis mələkdən gözəldir”, “Tənhalıqda ölüm qorxusu yoxdur”, “Yer üzü görüş yeridir”, “Bitəcək nə varsa, bitməlidir”, “Din sevdim din üstünə”, “Göz yaşlarından baxan allah”, “Seçilmiş əsərlər” və başqa kitabları oxucu rəğbətini qazanmışdır. Üç uşaq atasıdır. Yaradıcılığında türkçülüyə və dərviş fəlsəfəsinə üstünlük verir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Görkəmli şəxslərin Rüstəm Behrudi haqqında söylədikləri fikirlər:**

Rüstəm Behrudi – təpədən dırnağa şairdir. O, bizim aramızda gəzən, bizim görmədiyimiz adamdır. Tamın zərrəsidir o, bizim kimi.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

Rüstəm Behrudidə nə varsa, hamısı elə bil ki, türkün emosiyalarıdır, geniş ruhlu bir insanın çılğın hisləridir. Çünki burda əsl türkün obrazı yaradılıb.

**Nizami Cəfərov,**
*Əməkdar elm xadimi*

Rüstəm Behrudinin şair səsində, poeziya nəfəsində bu günümüz üçün çox gərəkli olan iki aydın çalar var, bu iki çalar- türklük və nəsimiçilik oxucunun duyğularını, zehnini iki qol kimi qucaqlayır.

**Tofiq Hacıyev,**
*akademik*

Mənə elə gəlir ki, Rüstəm Behrudi zamanlar üstə yaşayan şairdir. Elə bir yerdə yaşamaqdadır ki, orada dün, bu gün, yarın yoxdur.

**Əhmət Bigə Ərculasun,**
*türkoloq*

Gözünü açarsan göylərə baxarsan. Göy üzündə Rüstəm Behrudinin sözün görərsən.

**Kamil Vəli Nərimanoğlu,**
*filologiya elmləri doktoru*

Rüstəm Behrudinin anadan olmasının 60 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, şeir və digər müsabiqələr, ədəbi-bədii gecə keçirilə bilər. Bu dahi şəxsiyyəti sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Öz ruhunu dinləyən şair", "Yaddaşlara yazılan şair – Rüstəm Behrudi", "Misraları boz qurda dönən şair", "Din sevdim din üstünə", "Tanrıdan gələn bir səsəm", "Sözlərimə yağış yağır", "Behrudi dünyası", "Yorulmaz və cəfakeş şair – Rüstəm Behrudi", "Din sevdim din üstünə", "Qəlbi Vətən olan şair", "Aydın sabahlara nur yolçusu olan şair", "Sözü silah, sözü sevgi olan şair", "Dünənlə sabahın şairi" və s.

Rüstəm Behrudinin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri "Şaman kimi sözlərdən mən tale toxuyuram..." adlı şeir müsabiqəsi ola bilər. Kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. R.Behrudinin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından qısa məlumat verir. Nəfis şəkildə nəşr olunmuş kitablar hamı tərəfindən rəğbətlə qarşılanır.

*Tədbir zamanı kitabxanaçı hamıya şair haqqında məlumat verir.*

*Kitabxanaçı:* Ötən əsrin 80-ci illərindən başlayaraq ədəbiyyata olan böyük sevgisini şeirə çevirməyi bacaran Rüstəm Behrudinin bütöv yaradıcılığını, əslində bir cümlə ilə xarakterizə edə bilərik. Türk-Azərbaycan milli etnik sivilizasiyaının poetik salnaməçisi, qızğın tərənnümçüsü keçmişdəki dəyərləri gələcəyə ötürəni. Fəqət, pafoslu, ideoloji yazılarıyla deyil, Şaman duası enerjisi ilə, "Quran" ayələri avazı üstündə, Orxon-Yenisey mətnlərinin tarixi-fəlsəfi ruhunda, Füzulinin əmanət

etdiyi saf türkcəmizdə yaratdığı həzin, kövrək, lirik-fəlsəfi şeirləriylə:

Mənim buntürk sak babam...
Hun babam, Oğuz babam...
Göy Tanrı,
Qara xan, Oğuz Gültəkin...
Hərəsi içdiyim
Bir anddan gəlir...
Mənim qərib-qərib
Ulayan sözüm
Atilla gözləyən
Boz qurddan gəlir...

Bir milli şair olaraq Rüstəm Behrudi yaradıcılıq yolunun bütün mərhələlərində bir amala xidmət etməyə çalışıb: Türk ruhunun poetik nəbzini tutaraq dünyanın aparıcı etnosu olan bu qədim toplumun bəşəriyyətə bəxş etdiyi ən yaxşı cəhətlərini qabartmaq, sivilzasiya tarixinə qatmaq. Şair şeirlərində Şaman kimi türkə dua oxuyur, Boz Qurd kimi milləti döyüşərək özünü xilas etməyə səsləyir, qərib dərviş tək haqqa sığınaraq etnosdaşını ali həqiqətə doğru aparmaq, sevdiyi insanları Tanrının Göy çadırı altına yığmaq istəyir, hətta ata dili üstə millətə ağı deyir, insanı ali nemət olan azadlığa qovuşmaqdan ötrü mübarizəyə qaldırır, yalqızlığı ilahiləşdirir, hər yerdə sevgi axtarır...

Hər qələm sahibinin öz aparıcı mövzusu olur. Bu mövzunun arxasında isə müəllifin əqidəsi, amalı dayanır. İnsan istəkli sirdaşdan, doğma yurddan ayrılarkən darıxdığı kimi, yazıçı da nədən yazırsa-yazsın, sözü dolandırıb öz mövzusuna qayıdır. Bu fikri şair Rüstəm Behrudinin “Yaddaşlara yazın” kitabına şamil etmək olar. Kitabda sevgidən, təbiətdən, sənətdən və başqa mövzulardan danışılsa da, Vətən mövzusu ön plana çəkilir. Şairə görə Kərkükdü, Göyçədi, Qarayazıdı-Vətən, Füzulinin məzarı da vətəndi, Arazın dərdi də vətəndi. Bu tutarlı, məntiqli fikrin

arxasında Vətəndən yalnız barınmaq ideyası yox, onun dərdini sevincə çevirmək, yeri gəlsə, uğrunda baş vermək istəkləri dayanır. Behrudi "Vətən" sözünü çox işlətsə də, bu müqəddəs mövzunu ucuzlaşdırmır, onun arxasında gizlənmir. "Yaddaşlara yazın bunu" şeirində deyilir ki, Vətən varlığını "hərə bir cür dərk eləyir". Bu maraqlı, yaddaşlarda yazılan şeirdə şair "Vətən" sözünü qalxan edib min-bir fırıldağa əl atanları, Vətənin büllur adına sığınıb çirkin işlərə qoşulanları ifşa edir. R.Behrudi həmin mənfi tipləri də ustalıqla ümumiləşdirir:

O adama nəyə gərək Vətən nədir;
Beləsinin dilini al, elinin al,
Komasına əl vurmasan,
Bilməyəcək nəyi gedir, nəyi qalır, itən nədir.

*Birinci iştirakçı "Yurd yerimiz" adlı şeirini intonasiya ilə deyir.*

Qarşı yatan qara dağı-yaylağım,
Düzənləri, ormanları-oylağım,
Əyilməyən çinarları-bayrağım – Vətən!

Mənə üz tut-yurda ocaq qurana,
"Turan"-deyib Boz qurd kimi durana.
Sonun yoxdu, çevrilməsən Turana – Vətən!...

*İkinci iştirakçı "Tanrının göy çadırı altında" adlı şeirini intonasiya ilə deyir.*

Min illərdir yol gəlirik,
Yolumuzda gah qış oldu, gah yaz oldu.
Varlığımız qəbir üstə qoç heykəli,
Axar suda Kürə döndü, Araz oldu.
Tanrının göy çadırı altında.
Yer üzündə çaylar axar,
Oka, Dünay, Ob, Yenisey.

O çaylara min il əvvəl
Mən ad verim, mən ad hey...
Tanrının göy çadırı altında...

*Üçüncü iştirakçı "Araz çayı" adlı şeiri demək üçün səhnəyə yaxınlaşır.*

Dildə haray salan kəsin
İçi az yanar-az yanar.
Bir dərdim var: saza desəm,
İnan, saz yanar-saz yanar.

Araz  deyib qarğayan var,
Araz  deyib ağlayan var
"Qurd ağzı bağlayan" var,
Desəm, söz yanar-söz yanar.

*Dördüncü iştirakçı "Vida türküsü"adlı şeirini deməyə başlayır.*

Mən yalqızam bir qurd kimi,
Mənnən birgə qalan gəlsin.
Talanmışam bir yurd kimi,
Qisasımı alan gəlsin.
Qeyrətdisə qanındakı,
Nə öndəki, nə sondakı?!
Mənim Tanrı dağındakı
Qismətimi bölən gəlsin.

Bu gün şaman imanını,
Öz içində Turanını,
"Damarında Türk qanını
Zərrə-zərrə bilən gəlsin".

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

Kitabxanada şairdən bəhs edən *"Mənim sözlərimə büküb dəfn elə"* başlıqlı kitab müzakirəsi də keçirmək olar. Tədbirdə yuxarı sinif şagirdləri, oxucular, ədəbiyyat müəllimləri, bir sözlə, Rüstəm Behrudinin qələminə vurğun olan hər kəs iştirak edə bilər. Kitabxanaçı ilk olaraq qonaqları salamlayır və şairin ömür yolundan və qələmindən ağ səhifələrə yağan əsərlərindən söhbət açır. Sonradan isə kitabxanaçı şairin həyatı və əsərləri haqqında məruzə edir.
*Kitabxanaçı*: Rüstəm Behrudi – təpədən dırnağa şairdir. O, bizim aramızda gəzən, bizim görmədiyimiz adamdır. Tamın zərrəsidir o, bizim kimi. Amma bizə məhəbbətindən, bizə mərhəmətindən, bizim hamımızın-bütün zərrəciklərin, insanın, otun, suyun, ağacın, yarpağın, çiçəyin, heyvanın, hətta iblisin də günahlarını öz boyuna götürüb və hamının, hər şeyin, bu günahkar dünyanın bütün günahlarının əvəzində tövbə edir, günahlarının bağışlanması üçün allaha dua oxuyur... Bu günlərdə görkəmli Azərbaycan şairi Rüstəm Behrudinin doğum günüdür. Türk dünyasının sevimli şairi kimi tanınan Rüstəm Behrudinin şeirləri dünyanın aparıcı dillərinə çevrilib və bu gün də müxtəlif ölkələrdə oxucular tərəfindən rəğbətlə qarşılanır. Şairə sağlam ömür və daha ötülməz yaradıcılıq nümunələri ilə oxucularını sevindirməsini diləyir və şah misralarının yer aldığı dillər əzbəri olan şeirlərinindən bir neçəsini təqdim edirik. Məlumatlandırmaq istədiyim şeirlərdən biri "Məni adamlar unutdu" adlı şeiridir. Şair bu şeiri yazma səbəbini belə ifadə edir: "Mənə ehtiyacı olanlar ora girsinlər deyə ürəyimin qapısına, kilid qoymadım. Mən əzab çəkim deyə, mənə ehtiyacı olmayanların ora girməyinə nə ad verim, Tanrım? Tanrım, harda yanlış yapdığımı anlat mənə. Heç zaman qovuşa bilməyəcəyim bir adama aşiq olmaq qədər kədərli bir şeyin ağrısı var içimdə.

Sən yoxmuşum kimi davrana bilərsən, sən ey ölümsüz sevginin bəlası. Bütün qəlbimlə acıyıram sənə.

Tanrım, bağışla, əfv elə,
Din sevdim, dinin üstünə.
İlk bahar yağışı yağdı.
Yağdı dərdimin üstünə.

Biz dua oxuduq, dua,
Dərdi, sevinci bir udum.
Sən mələklərin xorunda
Mən təkbaşına oxudum...

Şairin sizə təqdim edəcəyim növbəti şeirlərindən biri də "Sən rüzgar kimisən"dir. "Tanrım, ən böyük istəyimdi-məni dəli olmağa qoyma. Məni iblisin od və atəşdən ucalan möhtəşəmliyinə sığınmaqdan qoru. Tanrım, bir qara sevda dolanır başımda. Onu sənə gələn yola çevir, uçurumlara körpü elə".

Eşidirsənmi, ruhum mənim,
Eşidirsənmi?
Bir son var, əvvəli yox.
Gedəcəyim bir yer var, yolu yox.
Dəlixana var, dəlilər var, dəli yox...

Şairin sizə təqdim edəcəyim növbəti şeiri "Araz qırağında bitən yovşanam!" adını daşıyır.

"Yolum kəndimizə düşəndə Araz boyu bitən yovşanlara baxmaqdan doymuram. Hərdən mənə elə gəlir ki, bu yovşan kolları mənə yaman oxşayır".

Məndən uzaq gəzər atəşböcəklər,
Araz qırağında bitən yovşanam.
Nəğməmi küləkər oxuyar elə
Bir kimsə eşitməz, eşitməz, anam.

Elə qərib-qərib tənha iniltim,
Qarışar sulara, itər Arazda,
Nə olsun gülümdən ətrim saçıldı,
Heç kimə çatmadı ancaq bu yaz da...

Şairi sevdirmək və onun yaradıcılığını oxuculara tanıtdırmaq məqsədilə kitabxanada keçirilə biləcək tədbirlərdən biri də *"Ruh poeziyası və yaxud Rüstəm Behrudi"* adlı sorğu sualdır. Tədbirə şairin özü də dəvət edilir və oxucularının sevimli şairə ünvanladığı sualları bir başa özü cavablandırır.

*Kitabxanaçı şairin həyat və yaradıcılığına həsr olunmuş söhbətindən sonra sözü oxuculara verir.*

1. Rüstəm Behrudi özü haqqında nə deyə bilər? Doğulduğu yer, uşaqlıq, gənclik illəri haqqında nə deyə bilərsiniz?

Ordubadda balaca bir dağ kəndində doğulmuşam. Kəndimizin ortasında axan çayın gurultulu səsi də, Kiçik Qafqazın Allaha və göy üzünə hər yerdən daha çox yaxın olan dağları da, o dağlardan duman içində görünən Savalan da, Təbriz yolu da indiyəcən ağlımdadır. Ehtiyac, kədər və yalnızlıq içində yaşadığım uşaqlıq illərim ürəyimin şəklinə oxşayır indi. Kənd müəlliminin pulu ilə doqquz uşaq böyüdüb, hamısını oxudan atam Hidayətin əllərinin qabarı gözümün önündə, uşaqlarının üstündə hər əzab-əziyyətə qatlaşıb nanə yarpağı kimi əsən anamın duaları hələ də qulaqlarımdadır. Həyatımda dədəm (babam) silinməz izlər buraxıb. Düzlüyü, doğruluğu, namuslu olmağı ondan öyrənmişəm. Orta və ali məktəbdə də tək və yalnız yaşamışam. Ancaq bunu heç kimə hiss etdirməmişəm.

2. İlk şeirlərinizi nə vaxt yazdınız? Şeirin mövzusu yadınızdadırmı?

İlk şeirlərimi orta məktəbdə oxuyarkən yazdım. İlk şeirimi bir qıza, ikinci şeirimi isə Araza (yəni Araz çayına) yazmışam.

3. Hansı şairləri mütaliə edirdiniz?

Uşaq vaxtından Füzulinin dəlisiyəm. Sonralar, Nəsimiyə, Xətaiyə, daha sonralar Hadiyə və Cavidə vuruldum. Ali məktəb illərində M.Araz, B.Vahabzadə, M.İsmayıl, Mövlud Süleymanlı ürəyimdə yer elədi.

4. Ali məktəbi bitirdikdən sonra hansı peşə ilə məşğul olmusunuz?

Uzun illər Ordubadda-Kələki və Unus kəndlərində müəllim, sonradan Ordubadda müzeydə işlədim. Ordubadda qoyub gəldiyim işıqlı insanları indi də xatırlayıram. 1984-cü ilin payızında qatarın sonuncu ümumi vaqonunda Bakıya gəldim. Bir-birinin ardınca kitablarım nəşr olundu. Özümü təsdiqlədim. “Yazıçı” nəşriyyatında gecə qarovulçusu işlədim. Sonra redaktor oldum. Daha sonra Xalq şairi S.Rüstəmxanlının rəhbərliyi ilə “Azərbaycan” qəzeti qurduq.

5. Rüstəm müəllim, sizcə, dar ağacı sizin salamınızı alıbmı?

Onu deyə bilərəm ki, buna ən gözəl cavabı dostum, gözəl şairimiz Ramiz Rövşən mənim haqqımda yazdığı essesində cavab verib: “Dar ağacına çox adam salam verə bilər. Amma dar ağacının “Əleyküm salam” dediyi tək şair Rüstəm Behrudidir”.

6.Sizcə, Vətən nədir? Vətəndaşlıq nədir?

Vətən-sənsən, Vətən-mənəm,
Vətən- bizik.
Yaddaşlara yazın bunu-
Təmənnasız əgər “bizə” yarımasaq
Vətənsizlik, Vətənsizlik

*“Alın yazım” şeirində bu fikir daha da dərinləşdirilir:*

Hələ “Vətən” deyib bağıranların
Vətəndaş olmağa qeyrəti çatmır.

*Tədbirin sonunda Rüstəm Behrudinin özü və iştirakçılar şairin şeirlərindən parçalar söyləyirlər.*

Ruhumuzu gözəlləşdirən, türkçü şair Rüstəm Behrudinin yaradıcılığını oxuculara tanıtmaq, şair qələmini onlara sevdirmək və ən əsası da, bütövlükdə məktəblilərə oxu vərdişi aşılamaq üçün kitabxanalarda görüləcək tədbirlərdən biri də *"Poetik təsəvvür"* adlı oxucularla söhbət adlanır. Tədbir oxuculara, Behrudisevərlərə şairin əsərlərini tanıtmaq məqsədi daşıyır. Kitabxanaya toplaşan oxucular kitabxanaçı tərəfindən qarşılanır. Kitabxanaçı gələn qonaqları salamladıqdan sonra şairin kitablarından ibarət olan sərgi ilə yaxından tanış edir. Eyni zamanda o, Rüstəm Behrudi haqqında məlumat verir.

*Kitabxanaçı:* Ədəbiyyatımızda Rüstəm Behrudi adında bir imza var. Bu imza ötən əsrin axırlarından bu günə qədər yol gəlir və bundan sonra da dayanmadan həmin yolu tutub gedəcəkdir. Bu yolun başlanğıcı da Vətən, sonu da Vətəndir!

Rüstəm Behrudinin vətən, yurd sevgisinin zamanı intəhasızdır, sonsuzdur. Qarşı yatan qara dağdan başlayıb qara başın bu yol üstə qurbanlığına qədər davam edir. Şairin poeziyasında poetik zaman min illərlə ölçülür. Sevdanın dəli havası da min ildi başdan getmir. Daşlarda uyuyan tarix min ildi oxunmur. Şairin vətən, yurd sevgisi ləyaqətli vətəndaş olmaqdan keçir, "Yurd yerimiz" şeiri əsl vətəndaşlıq andıdır. Rüstəm Behrudinin şeirləri vətəni sevməyə və sevdirməyə gücü çatan poeziya nümunələridir. Çünki onun şeirləri yalnız misradan, bənddən, qafiyə və bölgüdən ibarət deyil, onların gözlə görünməyən ruhu var.

Vətənsiz biz kimik, vətənsiz nəyik?!
Vətəndaş deyilik qanana kimi.
Vətən bir ocaqdı, biz pərvanəyik,
Dolannıq başına yanana kimi.

Şair Azərbaycanın dilbər guşələrinin birində, Arazla üz-üzə dayanan Ordubad rayonunda böyümüşdür. Cənub həsrəti

təbiidir ki, Rüstəm Behrudinin poetik təfəkküründən onun isti misralarından kənarda qala bilməzdi:

Səbrinə od düşən bu nağılların,
Sözü babaların köçündən keçər.
Araz Ordubadda dağ-daşdan deyil,
Axıb adamların içindən keçir.

"Yurd yerimiz", "Bir gəmi olaydım sularında mən", "Mən yanmasam", "Mən elə beləcə ölməyəcəyəm", "Bütöv olmayan ürək haqqında nəğmə", "Dünyanı söymə" və başqa şeirlərin lirik qəhrəmanı oxucunu həm təvazökar, sadə, həm də cəsarətlə öz arxasınca aparır, inamlı, hünərli, bir sözlə, bütöv şəxsiyyət olmağı təlqin edir. Şairin vətəndaşlıq şeirləri, sevgi nəğmələri şümal deyil, açıq tərənnümdən uzaqdır. Rüstəm Behrudi qələmə aldığı mövzunu əvvəlcə öz içindən keçirir, ona öz gözləri, öz baxışları, öz duyğuları, öz poetik təsəvvürü ilə yanaşır, ilk baxışda nəzərə çarpmayan keyfiyyətlərin poetik mənalarını tapır və oxucunu istiqamətləndirə bilir. Rüstəm Behrudi şeirlərində vətəndaşlıq motivləri qabarıqdır. Şairin şeirlərində nikbinliklə həzinlik, vüsalla həsrət, cəsarətlə qayğı səmimi bir vəhdət təşkil edir və oxucu bu vəhdətin çalarlarına inanır:

Dünyanı heç kimin qarğışı tutmaz,
Qarğama dünyanı, dünyanı söymə.

Dağ uçar, beləcə, yol itər belə,
Bu çayın suları durulmaz daha.
Payızda toyları növbə gözləyən,
Bir kəndin mağarı qurulmaz daha.

Birinci şeirdə lirik qəhrəman üzünü bütün uğursuzluqların kökünü özündən kənarda gəzən, qətiyyətsiz, cılız adamlara tutur, sözünü onlara deyir, özü də kəsərli deyir. İkinci şeirin təbii

axarında, həzin misralarında isə şəhərə axının nəticəsində boşalan bəzi kəndlərimiz göz önündə canlanır. Şair insan xarakterində də, həyatda da, poeziyada da bütövlük axtarır. Yaxşı ki, bu bütövlükdə şəxsiyyətin və ovqatın, hadisənin və ya predmetin xarakterik çalarlarının poetik əksini tapmağa çalışmışdır:

Daha öyrənmişəm-yaz çiçəyiylə,
Payız xəzəliylə gəlir bilirəm,
Ürəkdə doğulan ağıl da bir vaxt,
Qocalır, insantək ölür, bilirəm.

İnsan öz yuxusunu olduğu kimi danışmağı, necə varsa, o cür təqdim etməyi çətindir. Onun poetik mətn kimi yazıya alınması daha çətindir. Hər halda danışsan da, yazsan da qarşıdakını inandırmalısan. Rüstəm Behrudi inandıra bilir, onun poeziyasında yuxu reallıqla irreallığın qovuşuğudur:

Üstümə qəm gələr əjdahalartək,
Yuxumda bir ağız qurd ular, keçər.
Nədənsə həmişə yuxularımdan
Önündə qurd duran ordular keçər.

Əsl yuxudur: burada xəyalla həqiqətin qovuşması var. Şairin "Qara qazlıq atların kişnərtisi gəlir misralarımdan" düşüncəsi də yuxudan keçib gəldiyi üçün inandırıcı görünür, poetik səslənir.

Rüstəm Behrudinin nağılı da yurd haqqındadır, yurda bağlıdır. Bu nağılın əsas obrazı da Qurddur – Boz Qurd. "Qurd və yaxud yurd nağılı" şeirində Rüstəm Behrudinin arzuladığı nağıl da bizim uşaqlıqdan eşitdiyimiz, yaddaşımıza hopdurduğumuz nağıl deyil. Bu nağılda göyçək Fatma, ağ atlı oğlan deyil, Səttarxan var, orada mağara, yeraltı dünya yox, Urmiya, Dərbənd, Altay var. Rüstəm Behrudi yaradıcılığında folklor obrazları azdır, amma bu yaradıcılığa xalq ruhu hakimdir.

Boz Qurd obrazı Rüstəm Behrudi yaradıcılığında bədii mətnin ruhunun təminatçısıdır. Ona görə də şairin şeirlərində Qurd özünə rahatca yer tapa bilir. Onun poeziyasında Boz Qurd ölməyib, diridir. Rüstəm Behrudinin şeirlərində yalnız Boz Qurd ulamır, təkliyin, tənhalığın, yalqızlığın ağrısını yaşayan sözlər, misralar da ulayır. Həssas oxucu Rüstəm Behrudinin şeirlərində onun özünün Boz Qurd kimi uladığını eşidə bilər.

Rüstəm Behrudi yaradıcılığında Boz Qurd obrazı onun poeziyasını mifoloji düşüncəyə söykəyirsə, Şaman obrazı bu poeziyanı İlahi başlanğıca bağlayır. Bu poeziyada Şaman ayrıca vəsf olunmur, onun şəninə söylənən misralar yoxdur. Amma Şamana, onun duasına böyük inam var. Bu inam Rüstəm Behrudi poeziyasının güc mənbəyidir, oxucuda şairin duasının qəbul ediləcəyinə böyük ümid yaradır:

Şaman kimi sözlərdən
    mən tale toxuyuram,
Ürəyimdə səksəkə,
    ruhumda bir zəlzələ...
Hər gecə göy üzünə
    mən dua oxuyuram:
- İlahi, bu milləti
    yox olmaqdan hifz elə!

Şair tək-tənha, çarəsiz qalan insanın vəziyyətini hay-küylə, ünvansız sözlərlə deyil, psixoloji duyumla canlandırır. Bu canlanma oxucuya ümid və inam gətirir:

Min il pıçıltım da Tanrıya çatdı,
İndi hayqırıram, özümə çatmır.
Bu gün mən piyada, istəyim atlı,
Gör necə tükənib, qüvvətim, gücüm,
Düşmənim bir yana, sözümə çatmır.
Gör necə qısalıb qollarım mənim
Doğma ocaqdakı sözümə çatmır.

Bu hələ bir yana, dərdə bax, Allah!
Əllərim saçıma, gözümə çatmır.

Bu misralar Vətənlə, yurdla bağlı istəklərin həqiqət ola bilməməsinin faciəsini yaşadır. Bu misralar qeyzdən və qəzəbdən param-parça olmuş bir ömrün zərrələridir. Amma bu yerdə Şaman ruhu köməyə gəlir və o bildirir ki, əgər arzularım həqiqət olmursa, ağaca, daşa dönüb torpağa qarışmaq istəyirəm. Bu, ruhun dincəlməsinin də ən qısa yoludur.

Rüstəm Behrudi heç kəsi təkrar etmir. Əslində o, kimisə təkrar etmək istəsə belə bu, mümkün deyil. Çünki Rüstəm Behrudinin çapdığı atın meydanı başqa məkandır. Bu məkanın bir tərəfində gün batanda o biri tərəfində günəş yenidən doğur. Onun poeziyasında özünəməxsus milli hiss və duyğudan enerji alan daxili dinamizm və səmimilik öz gücünü həmişə saxlayır. Səmimiyyəti, məhrəmliyi qoruyan və yaşadan poeziya isə oxucuya daha çox doğmadır. Rüstəm Behrudinin "Salam, Dar ağacı" şeirinin geniş yayılmasının və müəllifinə şöhrət gətirməsinin əsas səbəbi şeirin misralarına hopmuş səmimilik və məhrəmlikdir. Oxucu eşitdiyi salamı ala-ala, ona "əleyküm-salam" cavabını verə-verə özü də bilmədən şeirin ruhuna uyur. Elə bil salam oxucunu dalınca dartıb aparır.

Rüstəm Behrudinin Dar ağacı cəza ağacı deyil ki, günahkarları asasan, ölümün qınaq sahibi olasan. Rüstəm Behrudinin Dar ağacı əsr-əsr, nəsil-nəsil bölünən bir xalqın dərdiylə üz-üzə dayanan, Tanrının bəndədən aralı düşməsinə şəhadət verən bir ağacdır. Dar ağacına verilən salam oxucuya verilən salama çevrilir, ağac da ruhən yaxınlaşır, doğmalaşır.

Rüstəm Behrudi şeirində Dar ağacı oxucu yaddaşında qalan quru, günahkar ağac deyil. Rüstəm Behrudinin dilində bu ağac budağı, yarpağı olan həyat ağacıdır:

Çarxı tərs fırlanır fələk qarının,
Turan kölgəsində budaqlarının,

Rəngi bayrağımda yarpaqlarının,
Salam, Dar ağacı!
Əleyküm-salam.

Rüstəm Behrudi yağmalanan obalara, bölünən ellərə, tapdanan torpaqlara, quruyan çaylara görə Dar ağacı ilə haqq-hesab çəkməyə gəlib. Amma bu haqq-hesab məqamında hakim olmaq iddiasında deyil, o, yaxşı bilir ki, haqq-hesab məqamı Tanrının ixtiyarındadır. Rüstəm Behrudi Dar ağacının hüzurunda dəli bir şair kimi dayanır, heç Dar ağacının özünə də qürrələnməyə imkan vermir:

Qəbul et, növbəti qurbanın mənəm,
Mənim canım səndə, bil, canın mənəm,
Elə qürrələnmə... hər yanın mənəm,
Salam, Dar ağacı!
Əleyküm-salam.

*Tədbirin sonunda məktəblilər şairin şeirlərindən parçalar söyləyirlər.*

Böyük, yenilikçi, novator şair Rüstəm Behrudinin 60 illik yubileyi ilə bağlı keçirilən maraqlı tədbirlərdən biri də poeziya gecəsidir. "Şaman kimi türkə dua oxuyan şair" adlı gecəni bilavasitə şairin öz iştirakı ilə keçirmək olar. Həmçinin gecəyə Azərbaycanın görkəmli sənət-söz adamlarını, oxucuları, müəllimləri, poeziya həvəskarlarını dəvət etmək olar. Tədbir şairə həsr olunmuş slaydla start alır. Daha sonra aparıcılar səhnəyə yaxınlaşaraq şairi və digər qonaqları salamlayır.
*I aparıcı:* Rüstəm Behrudi vətənimizə sevgisi, vətənə, millətə olan məhəbbəti onun bütün misralarından, şeirlərindən, ümümiyyətlə, hər kəlməsindən süzülüb ağ vərəqlərə tökülür. Onun hər bəndi, hər kəlməsi vətən qoxuyur. Behrudi yaradıcılığı başdan-ayağa vətənə həsr olunur desək yanılmarıq.

Şeir ürəyin, beynin kardioqramıdır. Şeir yalnız ürəyin yox, həm də ömrün çövhəridir. Rüstəm Behrudinin  kitablarında yalnız bircə ömrün deyil, nəsillər və əsrlər ömrünün cövhəri verilmişdir. Xoşbəxt o şairdir ki, xalqını təmsil edə bilir, bu halda onun ilham vergiləri yalnız özünün deyil, bütün ulusun, yurdun mənəvi kardioqramına çevrilir. Şeir və dastanların çoxu əsrimizin son rübündə yazılsa da, ehtiva, dairəsi çox böyük, çox əzəmətlidir.

*II aparıcı:* Bir az qəribə səslənsə də, mənimlə razılaşarsınız ki, hər bir şairin harda adı çəkilir çəkilsin, həmin an onun ya bir məşhur misrası, ya bir bənd, ya da bütöv bir şeirin özü yada düşür. Rüstəm Behrudinin də adı çəkilən kimi yaddaşlarda aydınlaşan belə bir sadə, təbii, həm də məhəbbətin özü kimi ölməz misraları var:

Mən kiməm? Özünə qılınc qaldıran,
Özündən intiqam, qisas alan da.
Mənəm Çaldıranda, mənəm Şuşada
Elə qalib gələn, məğlub olan da...

*I aparıcı:* Rüstəm Behrudi poetik düşüncələrinin  coğrafi sərhədləri və imkanları çox geniş və zəngindir. Şairin bütün yaradıcılığının ruhunu təşkil edən təbilik və müasirlik, güclü vətənpərvərlik və xəlqilik, dərin beynəlmiləlçilik ideyaları, zəngin, incə, oynaq formada, yüksək obrazlarla öz bədii həllini tapır. Sülh, azadlıq, türkçülük,  demokratiya uğrunda mübarizə şairin  yaradıcılığında geniş yer tutur. Şair bu mövzunu həmişə vətən və xalq anlayışı ilə vəhdətdə görür. Onun vətəndaş duyğuları ilə lirik qəhrəmanın ehtiras və düşüncələri çox vaxt eyniləşir.

*II aparıcı:* Rüstəm Behrudi şeirləri ilə yol gedir. O, yüz illik, min illik yolun yolçusudur. Bu yol Rüstəm Behrudinin qəlbindən başlayır, onu yurd yerinə aparır, amma həmin yolun üstündə Türkmənçay, Gülüstan, Çaldıran var. Qardaş qovğasını yaşadan tarixi yaddaş içində şairin "Beyrəyin köynəyini qanlı-qanlı

gəzdirmək" istəyi təbii və inandırıcıdır. Çünki Rüstəm Behrudinin yurd yerinə çatmaq istəyinin görk yeri yalnız Beyrəyin köynəyi ola bilərdi. Mövzu, ideya və bədii detal arasındakı qırılmaz bağların təbiiliyinin sübutu üçün şeir tariximizdə bundan gözəl nümunə tapmaq çox çətindir. Rüstəm Behrudinin poeziyasında tarixi məkanlar da – Təbriz, Dərbənd, Ötükən; tarixi şəxsiyyətlər də – Teymurləng, Xətai, İldırım Bəyazid, Sultan Səlim, Qacar; mifoloji obrazlar da – Qorqud, Beyrək, Leyli, Məcnun, Əsli, Kərəm həm poetik mətnin içinə daxil olurlar, həm də müəllif ideyasının qavramına təminat verirlər.

*I aparıcı:* Rüstəm Behrudinin vətən, yurd sevgisinin məkanı bugünkü deyil, tarixi coğrafiyanın sərhədlərinə dayanır: Qarayazı, Göyçə, Ərzurum, Kərkük bu coğrafiyanın adi məkanlarıdır.

Şair bu yolu gedərkən Araz üstə körpü olmaq istəyir. Bu yol çox uzundur, bəzən heç axırı da görünmür. Amma o, öz yolundan dönməzdir və dönməməkdə çox qərarlıdır:

Bəlkə də, ölümə aparır məni,
Mənə gəl-gəl deyib yanan ocaqlar.
Yolumdan dönmərəm, dönük şairin
Şeirinə od vurub yandıracaqlar.

Rüstəm Behrudi bu yolun sonunda ölümə də hazırdır:

Bu yurdun min illik ayrılıqları
Div kimi durubdu yolumun üstə.
Qoy düşsün sonuncu döyüşçü kimi
Mənim qara başım qolumun üstə.

Şairin poeziyasında həyatla ölüm bir yerdədir, vəhdətdədir, ayrılmazdır:

Bir ömürdüm,-sevinci az, qəmi çox,

Necə göynər könlümdəki yaram, ox!
Bu dözümdən daha mənə haray yox...
Bax, öldürüb:
Başdaşımı ağlar hey!..

*II aparıcı:* Bəs yurd yerinə çatan Rüstəm Behrudi kimdir? Bu sualın cavabını o, özü vermişdi. "Şaman nəvəsiyəm mən yurd yerində", - deyən Rüstəm Behrudi heç vaxt özünü yurd yerinin sahibi hesab etmir. Qızğın, ehtiraslı romantik pafosun qanadlarında onun özünü yurd yerinin ilk nümayəndəsi hesab etmək istəyi təbii görünərdi. Şair bunu etsəydi, hamımız inanacaqdıq. Amma Rüstəm Behrudi poeziyası ayıq, aydın poeziyadır, hədəfi düz nişan almağı bacaran şeir sənətidir:

İlk yurd yerindəki ocaqdan öncə,
Dil açıb danışan - mən deyiləm, yox!
Heç zaman qəbrinə sığmayanların
Ruhudur, danışır mənim dilimcə!

Müasir insanı öz əcdadı ilə birləşdirən yeganə doğru yol ruhdan keçir. Bu ruh tarixi yaddaşın da əzəli və əbədi məkanıdır. Rüstəm Behrudi əqidəsi şairliyi ilə harmoniya təşkil edir. Bu yolda ölmək də var. Çünki bu yol şairin (həm də türkün!) taleyidir.

Rüstəm Behrudi poeziyasında xalqdan və millətdən ayrıca bir şair ömrü yoxdur. Şairin yaşadığı hiss və duyğular millətin həyatı, xalqın taleyi ilə vəhdətdədir. Onun yaradıcılığında şair şəxsiyyəti ilə millət obrazının birliyi yaranır. Bu xətt Rüstəm Behrudi yaradıcılığını fərqləndirir.

*I aparıcı:* Rüstəm Behrudinin şeirləri müasir şairlərin heç birinin şeirlərini xatırlatmır. Bu fərqlilik poetik novatorluğun şeirdə ifadə olunan fikirlərdən qaynaqlanması, həmçinin şeirin daxili hərəkətinin tənzimlənməsi ilə bağlıdır. Nümunələrdə rast gəlinən "Tanrı öz yanından göndərib məni", "Qurd kimi uladım

gecələr elə”, “Orda-Tanrı dağda Gurşad gözləyir” kimi misralar bir bəndin sonuncu, digər bəndin isə birinci misrasına çevrilməklə dinamizm yaradır. Əslində isə Tanrı, Boz Qurd, Gurşad adlarını içinə hopduran həmin misralar şeiri ruh kimi dolaşır.

*II aparıcı:* Dünyada ilk qədəmlərimizi atarkən doğulduğumuz torpağın adı bizim hələ sadə, təfəkkürümüzdə Vətən mənasındadır. Sonra bu ad məktəb dəftərimizin üstünə yazılır, məktublarımızın üstündə bir ünvan kimi dünyanı dolaşır. Daha sonralar ömür pasportumuza yazılaraq bütün həyat boyunca bizimlə birgə yaşayır. Rüstəm Behrudi də ədəbiyyatımıza, poeziyamıza öz imzası, adı, soyadı ilə yazıldı. Şanla-sanballa yazılan bu imza poeziyamıza silinməz möhür vurdu və daha neçə-neçə əsərlər yazıldıqca da, vurulacaq... Ürəyinizə hərarət, qələminizə bərəkət, gözəl şairimiz. Yaşayın və yaradın!..

*I aparıcı:* Qoy ilham pəriniz sizi müjdələsin yeni-yeni şeirlərə, pıçıldasın qulağınıza misraları, bəndləri. Tanrı sizi və sizin simanızda vətən övladlarını qorusun!

Başımdan dumanlı uyğular keçir-
Görəsən, xoşbəxtmi yazdığım yazı!
Görəsən, aldatmır bu fikir məni
Ki, “quzu” sözündə yazıqlıq yatır,
Ya “yazıq” sözündə yaşayır quzu.

Başımdan dumanlı uyğular keçir,
Fikrə, düşüncəyə nə qorxu,
Fikirdə yaşayır azadlıq ancaq!
“Azadlıq” deməkdir “fikir” bəlkə də!?...

## Ədəbiyyat siyahısı

***Əsərləri***
***Kitablarda***


Din sevdim din üstünə (Dar ağacından qıpqırmızı alma çiçəklərinə məktublar) : poeziya. - Bakı : Orxan, 2003. - 132 s. ; 21 sm

Salam dar ağacı. - Bakı : Azərnəşr, 2007. - 528 s.


***Dövri mətbuatda***


Ölən əbədiyyət və təkrarlanan dünya : Rüstəm Behrudinin həyat və ölüm haqqında fəlsəfi-poetik düşüncələri // Xalq qəzeti. - 2005. - 6 sentyabr. - S.6.

50 yaş üstünə : Əlizadə Nuriyə // Azərbaycan. - 2013. - № 2. - S. 15-17.

Dağlar duman olmadan ; Şair tövbəyə sığmaz ; Məzarlıqda bitən yovşan və b. şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 9 may. - № 28/29. - S. 10.

Salam, Dar ağacı ; Boz qurd ; Vida türküsü : şeirlər // Kaspi. - 2016. - 17 sentyabr. - № 146. - S. 16.

Yalnızlığın bəlası : [şairə Gülsadənin yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 11 fevral. - № 5. - S. 21.

Dağlar duman olmadan : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 16 sentyabr. - № 32. - S. 11.

Şeirlərim mənim günahımdı : Bu şəhərdə qalmaq üçün salam verməyə, getmək üçün vidalaşmağa bir kimsə yox // Müsavat. – 2000. – 12 sentyabr. - № 206. – S.15.

*Kitabiçi*
Vətən : şeir // Vətənə nəğmə çələngi. - B. : Qoliaf, 2011. - S. 397-398.

*Haqqında mətbuatda*
**Laçınlı A.** Yaddaşlara yazın // Azərbaycan gəncliyi. – 1987. – 18 avqust.

**Hidayət.** Poetik təsəvvür : Rüstəm Behrudi. Yaddaşlara yazın, yazıçı ,1986 // Ədəbiyyat və incəsənət. – 1987. – 24 avqust.

**Bəylərqızı Ş.** Üç gün əvvəl az qaldım ölüm : Rüstəm Behrudi tək qalmaq istəyir // Müsavat. – 2000. – 25 iyun. – S.15.

**Azərbaycan Yazıçılar Birliyi.** Rüstəm Behrudi - 50 // Ədəbiyyat qəzeti. - 2007. - 28 sentyabr. - S.4. .

**Aydın X.** "Şaman kimi sözlərdən mən tale toxuyuram..." : Rüstəm Behrudi - 50 // Ədəbiyyat qəzeti. - 2007. - 28 sentyabr. - S.4.

**Cavadzadə N.** Tanınmış sənət adamları Etimad Başkeçidin romanından danışdı // Ulduz. - 2012. - № 11. - S. 70-72.

**Akimova, E.** Bilinmir ömürdür, ya da ki, oyun : "Səni axtarıram, poeziya" silsiləsindən IV yazı // Ədəbiyyat qəzeti. - 2016. - 2 iyul. - № 25. - S. 20-21.

**Əliyev K.** Ruh poeziyası yaxud Rüstəm Behrudinin özü haqqında bilmədikləri : Rüstəm Behrudi öz ruhunu inləyən şairdir. O, ruhun söyləmədiyini, yaşamadığını poeziyaya gətirmir // Ədəbiyyat qəzeti. - 2016. - 15 oktyabr. - № 38. - S. 26-27.

**Azərbaycan Yazıçılar Birliyi.** Rüstəm Behrudi - 60 // Ədəbiyyat qəzeti. - 2017. - 9 sentyabr. - № 31. - S. 24.

**Şaman nəvəsi – Rüstəm Behrudi**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 44
Çapa imzalanmışdır:22.08.2017
Tirajı:100
Pulsuz